

Vaqif YUSİFLİ



# DUA YAĞIŞI

## (Xanım İsmayılqızının ad gününə)

Xanım İsmayılqızı

Elə bilirəm, müasir Azərbaycanın sənət mühiti üçün bu ad təzə deyil. Mahnılar müəllifi, publisist, tərcüməçi və ŞAİR. Şəxsən mənim üçün ən axırıncısı daha üstündür.

Onun şeirlərini çoxdandı oxuyuram və bu şeirləri oxuduqca bugünkü böyük şeir meydanında Xanım İsmayılqızının yerini, kiçik olsa da, tutduğu məkanı və o məkandan eşidilən səsini də aydınca hiss edirəm. Bu il, aprelin 10-da onun 60 yaşı tamam olur. Amma Xanım İsmayılqızı son bir ildə kədərlidir və çox güman ki, yubiley və ad günü barədə heç fikirləşmir də. Canından artıq sevdiyi oğlu vəfat etdi. "Dünyaya gəlmək getmək üçündür, bu nə qəmdir" (S.Ə.Şirvani), Hamımız köçümüzü sürəcəyik, amma ana üçün oğul itkisi heç unudulmaz. Amma mən Xanımın "Dua yağışı" kitabından söz açmaq, bu balaca yazı ilə onu ovundurmaq istəyirəm..

Dua eləmək diləməkdir, iltimas etməkdir, yalvarmaqdır, Sirri-xudaya üz tutmaqdı, müraciətdi. Yəni anlayışın hərfi mənası budur. Amma dua etmək təkcə dindarların və adi insanların alnına yazılmayıb, dua, şairlərin də şeir yaranandan bəri Allaha müraciətin ən məqbul formasıdır. Və get-gedə, əsrlər bir-birini əvəz etdikcə şairlərin şeirlərindəki dualar ayrıca, müstəqil forma halına keçmişlər. Klassik poeziyada bunun isbatı və sübutu üçün yüzlərlə misallar gətirmək olar. Bəs müasir poeziyada? Təbii ki, sovet dönəmində bu mümkün deyildi. Amma sovet rejimində quruluşun və sosrealizmin buzları əriyən kimi şeirimizdə duaların və dua-şeirlərin sayı sürətlə artmağa başladı. Bunun ən bariz nümunəsini Vaqif Səmədoğlunun poeziyasında izləyə bilərik.

Xanım İsmayılqızının şeirlərindəki DUA lokal səciyyə daşıyır. Əsasən anlayışın hərfi mənasından doğur və müəllif fikrinin daşıyıcısına çevrilir:

***Pərvərdigara,***  
***Dünyanın nə dərdi var,***  
***Yüklə mənim belimə.***  
***Bir əsa ver əlimə.***  
***Bu dünyaya gücü çatan.***  
***Dərd daşıyan gətirmisən.***  
***Dizlərim bükülsə birdən,***  
***Mən yerdən yox,***  
***Təkcə sənin ətəyindən tutacağam.***  
***Bir əlim dərdin ucunda,***  
***Bir əlim Tanrı əlində***  
***Gözləri dualı mən olacağam.***

Xanım İsmayılqızının şeirləri onun şair səciyyəsini tam mənada açıqlayır və qətiyyətlə deyə bilərəm ki, çox az şair tapılar ki, onun şeirlərində şairin özü hərfbəhərf, sətirbəsətir, şeirbəşeir özü görünə bilsin. Və bir də onu deyim ki, Xanım İsmayılqızının şeirləri həm də oxucuların ürəyinə yaxındır, elə bil, onun şeirlərindəki MƏN bizik, orada ifadə olunan hislər də bizimkidir.

Azərbaycan şairləri arasında (xüsusən son iyirmi ildə) eləsini tapmaq olmaz ki, ruhdan və ölümdən söz açmasın. Ruh həm şairlərin içində, həm də ondan kənardadır, necə deyərlər, didərginlik həyatı yaşayır. Ölüm isə çoxsaylı mənalar ifadə edir və bu mənaların hər biri barədə xeyli danışmaq olar. Ölümü bədbəxtlik sayan da var, səadət sanan da. Ölümü şeirlərində öldürən də var, dirildən də.

Xanımın şeirlərində, əgər belə demək mümkünsə, bir RUH dolaşmaqdadır. O, şeirlərinin birində yazır ki: "Səpələnən ruhumu, Toplamaqçün yoldayam". Şeirlərini oxuduqca hiss edirsən ki, o ruh deyilən nəsnə onunla doğrudan da, ömrün sonuna və ömrün sonundakı nəhayətsizliyə doğru yol gedir. Daim onunladır, ruhu bədəndədir və həm də ondan ayrıdır. Ruhu bədəndə, cismində olanda deyir ki: "Ruhumu soyunub əlimə geyindim, Yağıştək səpildim sözlərin üstünə. Bədənim üşüdü, ürəyim titrədi". Dualarının birində də Allaha üz tutub deyir ki: Allah, sən məni "Ruh adamı bitirmisən, Qucağına götürmüsən, Allah, seçib gətirmisən, Yaddaşından pozma məni". Başqa bir misal: "Ruhumdan doğan buluddan, Cüt övlad gəldi dünyaya. Biri şeir, biri nəğmə, Uçub getdilər səmaya". Məsələ burasındadır ki, Xanım İsmayılqızının poetik anlamında bütün mənəvi atributlar ruhla bədən arasında sakindirlər. Baxın:




***Ayaq - cismimi daşıyan,***  
***Ürək - beynimə aşiyan,***  
***Ömür - bir andı yaşıyan,***  
***Ruhla bədən arasında.***

***Göy-yerin üzünü görən,***  
***Torpaq-yoxundan bar dərən,***  
***Ana-bətnindən bar verən,***  
***Ruhla bədən arasında.***

***Vətən - sənə arxa olan,***  
***Övlad - nəfəsini alan,***  
***Can - yol ayrıcında qalan,***  
***Ruhla bədən arasında.***  
***Bəşər - milyonların səsi,***  
***Sevgi - varlığın zirvəsi,***  
***Allah - qoruyan hər kəsi,***  
***Ruhla bədən arasında.***

O ki qaldı Ölümə...Doğrusu, Xanım İsmayılqızının şeirlərində nə Ölümə tapınmaq var, nə də ondan çəkinmək. Bir sözlə, Ölümnamə yox. Sadəcə, ölümün mahiyyətinə varmaq var. Ölüm cismin sona yetməsidir, Ruhun yox. Xanım deyir ki: "Həyat eşqi varsa, ölüm pusquda, Hərdən nəfəsini göstərir bizə. Bivaxt qonaq kimi döyüb qapını, Təki soxulmasın mənzilimizə". Qardaşı Qoşqarın vaxtsız vəfatına həsr etdiyi üç şeirində də Xanım ölümnamədən uzaqdır, ölümdən doğan pessimizmi yox, ölümsüzlüyü intixab edir: "Saatdan ataraq dəqiqələri, Bircə saniyəyə yükləndin, qardaş...Bu son səfərində dua edərək, Yaxşı yol deməyə dilim gəlmir heç...Qardaş, mən yubandım, mənim yerimə, Atama, anama salam deyərsən".

Amma indi, oğlunun ölümündən sonra Xanım İsmayılqızı Ölümün var olduğuna inanır.

Xanım İsmayılqızının "Dua yağışı""kitabına çox maraqlı bir açıqlama yazan Afaq Məsud bir cəhəti dəqiq vurğulayır ki, "bu dünya Xanıma darıxdırıcı və cansıxıcı gəlir. Xanıma şeirlər yazdırıb, mahnılar bəstələdən də, əslində, elə budu...Bu dünyanın görünən tərəfi - son ucu fanilik və puçluqla bitən cazibədar al-əlvanlığı, nəfsdoyuran şirinliyi bizim Xanımı cəlb etmir. Onu cəlb edən - bu dünyanın sıravi gözlə görünməyən, anlaşılmayan ayrı tərəfləridir. Daim qulağına "bu, o deyil" - pıçıldayan ələgəlməz, görünməz, yalnız qəlbin ehtiyacıyla duyulan sirli həqiqətlər dünyasıdır".

Doğrudan da, Xanımın şeirlərində darıxan bir ürəyin səsini eşidirik. Bu səs qışqırıq deyil, nalə də deyil. Bu səs pıçıltı da deyil. Bəs nədir? Yalqızlıqdan, tənhalıqdan doğan ahlarmı? Bu elə hamının eşidə biləcəyi bir səsdir. Amma bu səsin öz fizioloji anlamından fərqi budur ki, o səs insan kimi canlıdı, onun da ruhu var.

***Bir küçə, bir adam, bir də yalqızlıq,***  
***Bir adam, bir ürək, bir də haqsızlıq.***  
***Bir ürək, bir nifrət, bir də qansızlıq.***  
***Bir nifrət, bir əzab, bir insafsızlıq.***  
***Bir əzab, bir ölüm və vicdansızlıq.***  
***Bir ölüm, bir küçə və Adamsızlıq.***

Ünlü şair Ramiz Rövşən Xanım İsmayılqızının "Dua yağışı"" kitabının təqdimat mərasimində həmin bu şeiri öz səsiylə oxudu və dedi ki, bu, Xanımın ən gözəl şeirlərindən biridir. Bu şeirdə Səsi hansı oktavada dilləndirsən, o öz rəngini itirməyəcək. Bəli, rəngini. Çünki Xanımın şeirlərində Səslə rəng bir-birindən ayrılmaz.. "Səsinin rəngini gördüm, Gözünün səsin eşitdim".

Səs, rəng, yağış, qar, Günəş, Ay, gecə, payız, qış, şam işığı, külək və nəhayət, işıq...bunlar Xanım İsmayılqızının şeirlərində maraqlı assosiasiyalar, uğurlu təşbeh və metaforalar yaradan obrazlardır. "Bomboş yağış yağır səsin gedəndən" - Səs və Yağış bu misrada bədii təzad yaradır. "Ömür dediyimiz ipdən asılıb, Fələyin küləyi qopara bilər" - hər misrada uyarlı bir metafora. İndi isə bir şeirdə təsadüf etdiyimiz təşbehlər sırasına diqqət edin: "Ölü bədən, yiyəsiz bir ev kimidi. Tifağı dağılmış ocaq, Kolkos basmış yurd kimidi. Susan ürək, Kor olan ömür kimidi. Qapalı göz, Dünyanın sonu kimidi. Canına əlvida deyən, Ruhun son sözü kimidi". İddia eləmirəm ki, buradakı təşbehlərin hamısı uğurludur. Hər halda, təzədir. Yenə bir metaforalar sırası: "Boz paltarlı səhər açıb, Döydü günün qapısını. Sevinc gözlərimdən qaçıb, Düyünlədi çatısını". Bir misal da: "Külək evində durmur, Düşübdü küçələrə". Bu misalların sayını səhifə-səhifə artırmaq olar.

Xanım İsmayıl qızının bir çox şeirlərində rasionallıqla emosionallıq, fikirlə hiss vəhdət təşkil edir. Müəyyən bir fikir onu şeirə çəkir, daxilindəki "filosof"un təkidilə bu fikri poetik şəkildə ifadə etməyə çalışır. Olsun ki, bəzən buna nail ola bilmi; fikir var, amma onun hissi-emosional çaları yox, yaxud da əksinə. Amma aşağıdakı bir şeirə diqqət yetirin. Görəcəksiniz ki, fikirlə hiss necə vəhdət təşkil edib, böyük şairimiz Məmməd Araz demişkən: "Şeir fikirlə hissin şərikli övladıdır. Hansının ata, hansının ana olduğunu demək çətindir. Yaxşı olar ki, ürək ağıllı, ağıl isə ürəkli olsun".

***Dünyaya doğulan gündən,***  
***Hamı nə isə axtarır.***  
***Kimsə öz itirdiyini,***  
***İtən kimisə axtarır.***

***Ürək-sevməyin yolunu.***  
***Yıxılan insan - qolunu,***  
***Allah-sevdiyi qulunu,***  
***Səni də kimsə axtarır.***

***Kor kimi divardan tutan,***  
***Günah dənizində batan,***  
***Hər kəsin yanında yatan,***  
***Qəmi də kimsə axtarır.***

***Körpə - ananın döşünü,***  
***Fələk - qəfil görüşünü,***  
***Ruhlar - geri dönüşünü,***  
***Onu da kimsə axtarır.***

Ümumiyyətlə, Xanımın şeirlərində narahat bir ürəyin çırpıntıları öz əksini tapır. O, dünyaya, gerçəkliyə, yaşadığı mühitə, mənəvi aləmə bəsirət gözü ilə baxır. Narahat ruhun axtarışları, həyəcanlı qəlbin hissiyyatları onu ağacda bir yarpağın intihar etməsindən, cəhənnəmin qapısının rənginə qədər hər şey düşüncəyə qərq edir. Bu narahat ruh və ürək sahibi deyəndə ki: "Yıxılmaq istəyirəm, Kədərimin başından. Yıxılmaq istəyirəm Gözlərinin yaşından" - yıxılmaq istəyinin səbəbinə də varırıq. Yıxılanda dayağı kim olacaq? Axı, ayaqüstü işlərin sonunda bir yıxılmaq da var. Sən demə, həyat, olub-keçənlər, xatirələr onun üçün bir yuxu imiş ki, deyir: "Dizimdə taqət var ikən, Yuxudan gerçəyə qaçım".

Əzizimiz Xanım İsmayılqızı! Məni bağışlayın ki, sizi bu yazıda təbrik edə bilmədim. Amma kədərinizə şərikəm. Həyat isə davam edir...